

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 130 (24.017)

*15 iyul 2022-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


***Bu gün muxtar respublikada həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının əsas məqsədi özəl sektorun inkişafı, biznes fəaliyyəti üçün əlverişli mühitin yaradılmasından ibarətdir. "Naxçıvan Muxtar Respublikasının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"nda iqtisadiyyatın inkişafında sahibkarların rolunun artırılması zəruri istiqamətlərdən biri kimi qarşıya qoyulmuşdur. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində fəaliyyət göstərən Sahibkarlığın İnkişafı Fondunun vəsaitləri də sosial-iqtisadi inkişafın prioritet istiqamətləri üzrə investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilir.***

*"Sənaye ili" – 2022*

## Sahibkarlığın İnkişafı Fondu sahibkarlığa dövlət dəstəyini gücləndirir

Sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" 2018-ci il 7 avqust tarixli Fərmanı ilə Sahibkarlığa Kömək Fondunun ləğv edilərək İqtisadiyyat Nazirliyinin tabeliyində





Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxsin yaradılması və "Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaitindən istifadə Qaydası"nın təsdiq edilməsi ilə Sahibkarlığın İnkişafı Fondunun fəaliyyəti və sahibkarlıq subyektlərinin investisiya layihələrinin güzəştli şərtlərlə maliyyələşdirilməsi mexanizminin yenidən qurulması bu maliyyə qurumunun inkişafında dönüş nöqtəsi olmuşdur.

Bu qaydaların tətbiqi sahibkarlara güzəştli kreditlərin verilməsində olduqca əhəmiyyətli rol oynamışdır. Eyni zamanda dövlət-sahibkar münasibətlərinin və özəl sektorun inkişafı, özəl sektorda təşviq alətlərinin tətbiqi, aqrar sektora, kiçik və orta sahibkarlığa dövlət dəstəyi daim diqqətdə saxlanılmışdır.

Sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsi məqsədilə kreditlərin verilməsi 2022-ci ilin 6 ayı ərzində də davam etdirilmiş, iqtisadiyyatın müxtəlif sahələrinə fond tərəfindən 6 milyon 212 min 300 manat kredit ayrılmışdır.

2022-ci ilin "Sənaye ili" elan olunması bu sahədə işləri daha da sürətləndirmiş, cari ilin 6 ayı ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən polietilen məmulatlarının, salfet, araq, çaxır, mebel, plastik qapı-pəncərə, çörək, dondurma, kənd təsərrüfatı avadanlıqları və digər istehsal sahələri olmaqla, ümumilikdə, 16 layihəyə 4 milyon 918 min manat kredit verilmişdir.

Şərur Sənaye Məhəlləsinin yaradılması muxtar respublikada sənayeləşmə siyasətinin əsas prioritetlərindəndir. Məhəllədə yeni istehsal sahələrinin yaradılmasında sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyinin də mühüm rolu olmuş, layihənin icrasından ötən dövr ərzində Sahibkarlığın İnkişafı Fondu tərəfindən 2 layihənin maliyyələşdirilməsinə 526 min 500 manat dövlət maliyyə dəstəyi göstərilmişdir.

Naxçıvan şəhərində "Naxçıvan Saray" Məhdud Məsuliyyətli Cəmiyyətinin, Ordubad rayonunun Anaqut kəndində "Xan Çinar" İstirahət Mərkəzinin istifadəyə verilməsi muxtar respublikada xidmət sahibkarlığının inkişaf etdirilməsinə və əhalinin daha rahat yaşayışının təmin olunmasına göstərilən qayğının bariz nümunəsidir. Cari ilin ilk 6 ayı ərzində turizm infrastrukturunun inkişafı və yeni xidmət sahələrinin yaradılması məqsədilə 4 layihənin maliyyələşdirilməsinə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 258 min manat dövlət maliyyə dəstəyi göstərilmişdir.

Əlavə iqtisadi artım mənbələrinin yaradılmasında və ixracın genişləndirilməsində stimullaşdırıcı tədbirlərdən olan güzəştli kreditləşdirmə kənd təsərrüfatı sahəsini də əhatə etmişdir. Sahibkarlığın İnkişafı Fondu tərəfindən cari ilin ilk 6 ayı ərzində heyvandarlıq, arıçılıq, quşçuluq, bağçılıq təsərrüfatları, soyuducu anbar olmaqla, ümumilikdə, 60 layihəyə 1 milyon 36 min 300 manat güzəştli kredit verilmişdir. Bu layihələrin icrası ixracda kənd təsərrüfatı məhsullarının həcminin artmasına müsbət təsir göstərəcəkdir.

Kiçik sahibkarlığın baza potensialı hesab olunan ailə təsərrüfatlarının inkişaf etdirilməsi artıq muxtar respublikada həyata keçirilən ən mühüm iqtisadi tədbirlərdəndir. Bu məqsədlə kənd təsərrüfatının müxtəlif sahələri üzrə fəaliyyət göstərən 50 ailə təsərrüfatına Sahibkarlığın İnkişafı Fondu tərəfindən cari ilin 6 ayı ərzində 766 min 300 manat dövlət maliyyə dəstəyi göstərilmişdir. Fəaliyyətlərinin genişləndirilməsi məqsədilə həmin ailə təsərrüfatlarında maarifləndirmə tədbirləri aparılmışdır.

Bəhs olunan dövrdə kreditlərin verilməsi müvəkkil kredit təşkilatları tərəfindən icra edilmiş, fond tərəfindən alınan vəsaitlərin aidiyyəti üzrə xərclənməsinə xüsusi diqqət yetirilmişdir.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Taxılçılığın inkişafı və qarşıda duran vəzifələr müzakirə olunub

*İyulun 7-də "Araz" Elm-İstehsalat Birliyinin təcrübə təsərrüfatında Naxçıvan Muxtar Respublikasında taxılçılığın inkişafı və qarşıda duran vəzifələrlə bağlı müşavirə keçirilib. Müşavirədə verilən tapşırıqlara uyğun olaraq dünən Babək Rayon İcra Hakimiyyətində taxılçılığın inkişafı və qarşıda duran vəzifələr müzakirə olunub.*

Müşavirəni giriş sözü ilə açan rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov bildirib ki, dövlət qayğısı sayəsində aqrar rayon kimi tanınan Babək rayonunda da taxılçılığa geniş yer verilir. Belə ki, 2021-ci ilin payızında və 2022-ci ilin yazında, ümumilikdə, rayonda 11 min 94 hektar sahədə taxıl əkini həyata keçirilib. Bunun da 7 min 216 hektarını buğda, 3 min 878 hektarını isə arpa təşkil edib. Biçin kampaniyasının keyfiyyətlə və itkisiz başa çatdırılması üçün rayonda 36 kombayn saz vəziyyətə gətirilib. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yerli qurumu isə biçin dövründə yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsi məqsədilə maarifləndirici tədbirlər həyata keçirib. Görülən işlərin nəticəsidir ki, bu günə qədər rayon üzrə 10 min 868 hektar sahədə taxıl biçini aparılıb və bir neçə gün sonra biçin kampaniyası yekunlaşacaq.

Rasim Hüseynov deyib ki, torpaq sahələrinin normalara uyğun suvarma suyu ilə təmin olunması əkinçiliyin inkişafını təmin edən əsas amillərdən biridir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində görülən çoxsaylı tədbirlər torpaq sahələrinin su təminatının yaxşılaşdırılmasına, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına imkan verir. Suvarma mövsümünü mütəşəkkil təşkil etmək məqsədilə ilin əvvəlindən Babək Rayon Meliorasiya və Su Təsərrüfatı İdarəsinin balansında olan bütün nasos stansiyalarında təmir işləri həyata keçirilib. Torpaqların meliorativ vəziyyətini yaxşılaşdırmaq məqsədilə hazırda Nehrəm qəsəbəsi ərazisində 250 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilir. Həmçinin Çeşməbasar və Güznüt kəndlərində də 240 hektar sahədə qapalı suvarma və kollektor-drenaj şəbəkəsinin tikintisinə başlanılıb.

Bildirilib ki, rayon əhalisinin 70 faizindən çoxu kənd təsərrüfatı ilə məşğul olduğundan suvarma kanallarının təmizlənməsi və nasosların təmiri əsas amillərdən biridir. 2022-ci ilin yanvar-iyun ayları ərzində rayon ərazisində yerləşən arxlarda 25 min 285 metr, kanallarda 4220 metr lildən təmizlənmə işləri aparılıb. Əkin sahələrinin suvarılması üçün



nasoslardan əlavə ümumi tutumu 125,83 milyon kubmetr olan 11 göl vardır. Torpaqları əkin dövriyyəsinə qatmaq üçün şoranlaşmaya qarşı bir sıra işlər də görülüb, 12,1 hektar sahədə qrunt sularının səviyyəsi aşağı salınıb.

"Əhalinin taxıl və çörək məhsullarına olan tələbatının daxili istehsal hesabına ödənilməsi qarşıda duran əsas vəzifədir", – deyən icra başçısı bildirib ki, yaradılan şəraitə baxmayaraq, bu sahədə müəyyən nöqsanlar mövcuddur. Rayon üzrə 166 hektarı xüsusi mülkiyyətdə, 517 hektarı bələdiyyə mülkiyyətində, 45 hektarı isə dövlət mülkiyyətində olmaqla, ümumilikdə, əkinəyararlı 728 hektar ərazi əkin dövriyyəsinə daxil edilməyib. Həmin ərazilərin 100 hektarı sututar, 628 hektarı isə dəmyə əkin sahələri olub. Nehrəm qəsəbəsində 29, Cəhri qəsəbəsində 165, Nəhəcir kəndində 94, Qahab kəndində 263, Göynük kəndində 10, Vayxır kəndində 70, Sirab kəndində 52 hektar, xüsusi və bələdiyyə mülkiyyətində olan əkinəyararlı torpaq sahələrində və dövlət mülkiyyətində olan 45 hektar əkinəyararlı torpaq sahəsi əkin dövriyyəsinə daxil edilməyib.

Qarşıda duran vəzifələrdən də bəhs edən Rasim Hüseynov Babək rayonunda kənd təsərrüfatının davamlı inkişafına göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlığını bildirib.

Müşavirədə Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Bəhruz Bayramov, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin rəisi Müslüm Cabbarzadə, Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin sədri Yəhya Allahverdiyev, "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin sədri Vasif Məmmədov çıxış edərək aidiyyəti üzrə məlumat veriblər.

**Muxtar RZAZADƏ**

## İmtahanların keçirilməsi və yeni müsabiqələrin elan olunması davam etdirilib

*İyun ayında Dövlət İmtahan Mərkəzi tərəfindən muxtar respublikada müxtəlif istiqamətlər üzrə müsabiqələrin elan edilməsi və imtahanların keçirilməsi, eyni zamanda dövlət qulluğuna dair qanunvericiliyin tətbiqinə nəzarət davam etdirilib.*

İyunun 1-də dövlət teleradiolarında vakant vəzifələrin tutulması üçün elan edilmiş müsabiqənin esse imtahanı keçirilib. Müsabiqəyə çıxarılmış 7 vakant vəzifənin tutulması üçün 7 namizəd qeydiyyatdan keçib. İmtahanda iştirakçılara müstəqil mühakimə yürütmək və əsaslandırmaq bacarığını nümayiş etdirməyə imkan verən "Milli Qurtuluş Günü dövlətçilik tariximizdə" mövzusu təqdim edilib. İmtahanın nəticələrinə əsasən namizədlərdən 2-si müvafiq keçid balını toplayaraq müsahibə mərhələsində iştirak etmək hüququ qazanıb. İyunun 20-də keçirilən müsahibə mərhələsində namizədlərin hər ikisi iştirak edib və uğur qazanaraq sənədləri aidiyyəti üzrə göndərilib.

İyunun 6-da ölkəmizdə ilk dəfə olaraq məktəbəqədər tərbiyə müəssisələrinə işə qəbul üçün müsabiqə keçirilib. "Naxçıvan Muxtar Respublikasında pedaqoji heyətin dövlət ümumi təhsil, məktəbəqədər təhsil və peşə təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları"nın təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 14 aprel tarixli Qərarına uyğun olaraq keçirilən müsabiqəyə 33 tərbiyəçi-müəllim, 9 musiqi rəhbəri və 1 tibb bacısı olmaqla, ümumilikdə, 43 vakant vəzifə çıxarılıb. İmtahanın nəticələrinə əsasən tərbiyəçi-müəllim vəzifəsi üzrə 28, musiqi rəhbəri vəzifəsi üzrə 19, tibb bacısı vəzifəsi üzrə 3 namizəd uğur qazanıb. İyunun 24-də musiqi rəhbəri və tibb bacısı vəzifələri üzrə müsabiqənin ikinci – qabiliyyət və klinik tapşırıq mərhələsi keçirilib. Bu mərhələnin nəticələrinə görə müvafiq olaraq 10 namizəd uğur qazanıb və sənədləri aidiyyəti üzrə göndərilib.

İyunun 8-də "Dövlət qulluqçuları üçün vəzifə təlimatlarının hazırlanması qaydaları" mövzusunda seminar keçirilib. 42 dövlət orqanını təmsil edən nümayəndələrin iştirakı ilə keçirilən seminarda vəzifə təlimatlarının hazırlanması qaydaları haqqında məlumat verilib. Bildirilib ki, vəzifə təlimatları "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu, inzibati və yardımçı vəzifələrin Təsnifat Toplusu və "Naxçıvan Muxtar Respublikasının 1-5-ci kateqoriya dövlət orqanlarında inzibati vəzifələrin ikinci-yeddinci təsnifatlarına uyğun olan vakant vəzifələrin tutulmasının Ümumi Şərtləri"nin təsdiq edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 yanvar tarixli Qərarı əsasında tərtib edilir.

İyunun 21-də mərkəz tərəfindən dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün elan olunmuş müsabiqədə müvəffəqiyyət qazanan dövlət qulluqçularının andiçmə mərasimi keçirilib. Müsabiqəni uğurla başa vurmuş və ilk dəfə dövlət qulluğuna qəbul edilmiş 40 dövlət qulluqçusu and içib.

Ötən ay Dövlət İmtahan Mərkəzi tərəfindən Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə, dövlət ümumi təhsil müəssisələrinə, Naxçıvan Musiqi Kollecinə, AMEA Naxçıvan Bölməsinə, dövlət qulluğu üzrə inzibati vəzifələrin 5-7-ci təsnifatlarına və Səhiyyə Nazirliyinin tabeliyindəki müəssisələrdə vakant vəzifələrin tutulması üçün müsabiqələr elan olunub.

Hesabat ayında təşkil olunmuş dövlət qulluğuna qəbul üçün hazırlıq kurslarında 43, müəllimlərin işə qəbulu üçün hazırlıq kurslarında 21 olmaqla, ümumilikdə, 64 nəfər, keçirilən sınaq imtahanlarında isə 175 nəfər iştirak edib.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

Vətən sərhəddən başlanır

# Vətən boyda əmanətə keşik çəkmək təkcə borc deyil, həm də mənəvi ucalıq, şərəfdir

***Mənəvi zənginliyi, azadlıqsevərliyi və qəhrəmanlıq salnamələri ilə tarixdə ad qazanan Azərbaycan xalqının milli düşüncəsinə, dövlətçilik təfəkkürünə hakim kəsilən, cəsur igidlərimizi mübarizə ruhuna kökləyən ali milli ideya məhz Vətənin istiqlala qovuşması, müstəqil dövlət kimi taleyini azad şəkildə müəyyənləşdirməsi olub. Ölkəmizin xilaskarlıq missiyasını öz üzərinə götürən ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti və sarsılmaz iradəsi sayəsində məntiqə söykənən düşüncə əmələ çevrilib ki, bu da xalqımızın arzularını reallığa qovuşdurub, xalq olaraq milli özünüdərk şüurumuz böyük inkişafa yüksəlib. Xalqımızın vətənpərvərlik hissi təkcə sözdə yox, əməldə də öz ifadəsini tapıb. Bütün siyasi intriqalara, sosial çalxantılara, işğal faktlarına rəğmən milli dövlətçilik ənənələrinin bərpasına rəvac verilib.***





Dünya arenası ulu öndərin uzaqgörən siyasəti nəticəsində yeni müstəqil Azərbaycan Respublikasını tanıyıb, qəbul edib. 1993-cü il iyunun 15-də ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycan dərin ictimai-siyasi və iqtisadi böhrandan xilas olub, inkişafın sarsılmaz təməlləri qoyulub. Bütün sahələr kimi, ölkə sərhədlərinin müdafiəsində də örnək ola biləcək uğurlar əldə edilib. Müstəqilliyi yenidən bərpa olunan milli dövlət təkcə vətəndaş cəmiyyətinin, mənəvi dəyərlərin və maddi sərvətlərin qorunmasını deyil, həm də ölkənin ərazi bütövlüyünün bərpasını, sərhədlərinin etibarlı mühafizəsini öz üzərinə götürüb. Keçmiş sovet düşərgələrinin bir çox üzvlərindən fərqli olaraq Azərbaycanda dövlət sərhədlərinin mühafizəsi işi müstəqil şəkildə milli kadrlarla həyata keçirilməyə başlayıb.



Bu sahədə atılan addımlara, görülən işlərə nəzər saldıqda bir daha əmin olursan ki, sərhədlərimizin etibarlı müdafiə işi dərin strateji düşüncədən, ardıcıl siyasi iradə və ağıllı idarəçilik əzmindən qaynaqlanır. İndi sərhədlərimiz mənəvi cəhətdən yetkin, milli mənlik şüurunu qavramış Vətən övladlarına əmanət olunub. Bu gün dövlət sərhədlərinin mühafizəsinin təşkilində qarşıya çıxan problemlərin həll olunmasında, dövlət sərhədlərinin toxunulmazlığının təminatı məsələlərində Ali Baş Komandan cənab İlham Əliyevin ardıcıl dəstəyi müstəsna əhəmiyyət kəsb edir.



Muxtar respublikamızda da sərhəd mühafizəsi və müdafiəsi məsələlərinə ciddi önəm verilir. Bu yaxınlarda "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının əsgər yataqxanası və idman kompleksinin yenidənqurma işlərindən sonra Ali Məclisin Sədri cənab Vasif Talıbovun iştirakı ilə istifadəyə verilməsi sərhədçilərə olan inam və etimadın təzahürü, ali diqqət və qayğının ifadəsidir. Ali Məclisin Sədri açılış mərasimində ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci ildə yaradılan Naxçıvan Sərhəd Dəstəsinin keçdiyi yola nəzər salmışdır. Həmin dövrdə Ordubad rayonu ərazisində iki, Şərur rayonu ərazisində isə bir zastavanın Ermənistan sərhəd qoşunlarının tabeliyindən geri alındığını bildirən muxtar respublika rəhbəri Naxçıvan Sərhəd Dəstəsinin inkişaf edərək "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasına çevrildiyini və muxtar respublikada dövlət sərhədlərinin etibarlı mühafizə edildiyini diqqətə çatdırmışdır.

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının fəaliyyətinə nəzər yetirdikdə şəxsi heyətin xidməti döyüş şəraitinin, hərbi hissənin maddi-texniki təminatı və təchizatının ən müasir standartlar səviyyəsinə qaldırıldığı, sərhədlərimizin etibarlı mühafizəsinin təmin edilməsi istiqamətində yüksək nailiyyətlər əldə olunduğu bir daha təsdiqini tapır. Biz də diviziyada yaradılan şəraitlə yaxından tanışlıq üçün adıçəkilən ünvanda "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının zabiti, mayor ***Anar Hacıəliyev***lə həmsöhbət olduq: "Müstəqilliyimizin ilk illərində heç bir sərhəd mühafizə infrastrukturu olmayan sərhədlərimizdə son illərimizi əhatə edən böyük tikinti-quruculuq işlərinin geniş vüsət alması dövlətimizin sərhədçilərin əməyinə verdiyi dəyərin ifadəsidir. Bu gün muxtar respublikada sərhədlərin mühafizəsi, bu sahədə həyata keçirilən quruculuq işləri yeni mərhələyə qədəm qoyub, sərhədçilərin xidmət və məişət şəraiti əsaslı şəkildə yaxşılaşdırılıb. Diviziyanın maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqət mərkəzində saxlanılır, bu məqsədlə burada yüksək dövlət qayğısı göstərilir. Yaxın günlərdə "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında əsgər yataqxanası və idman kompleksi yenidənqurma işlərindən sonra biz sərhədçilərin istifadəsinə verilib. Zirzəmi ilə birlikdə 6 mərtəbədən ibarət olan binada şəxsi heyətin xidməti yüksək səviyyədə aparması üçün lazımi şəraitlə təmin edilən növbətçi və iş otaqları, hər biri 32 yerlik 10 yataqxana, şəxsi heyətin mövcud silah və döyüş texnikasından istifadə bacarıqlarının təkmilləşdirilməsinə imkan verən silah, sinif otaqları yaradılıb. Qazanxana, məişət və texniki otaqlar istifadəyə verilib. Diviziyanın həyətində yaşıllıqlar salınıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tapşırığı ilə burada hamam-camaşırxana kompleksinin tikinti işlərinə başlanılıb".

Mayor Hacıəliyev söhbətinə davam edərək dedi ki, maddi-texniki bazası yenilənərək müasir standartlar səviyyəsinə çatan "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında peşəkar kadr hazırlığına da xüsusi önəm verilməkdədir. Peşəkar kadrların yetişməsi üçün isə təlim-məşq toplantılarının rolu əvəzedilməzdir. Yaradılan sinif otaqlarında keçirilən məşğələlər yurda bağlı, sağlam ruhlu yüzlərlə gəncin Vətən, dövlət və millət məfhumlarını dərindən dərk etməyə çağırır. Gələcəyini sərhədlə bağlayan vətənpərvər gənclərin yetişdirilməsində bu tədris otaqlarının xüsusi rolu var. Sinif otağında şəxsi heyətin asudə vaxtının təşkili, ulu öndər Heydər Əliyev irsinin dərindən öyrənilməsi, oxunması zəruri olan kitabların mütaliəsi və şəxsi heyət arasında diskussiyaların keçirilməsi, əlavə olaraq dünyada baş verən siyasi hadisələr, ölkə Prezidenti və Ali Məclis Sədrinin qəbul etdiyi qərarların müzakirəsi aparılır, ümumi bölüyün yığıncaqları sinif otağında həyata keçirilir. Qeyd edək ki, sinif otağında oxunması zəruri olan kitablardan ibarət guşə də yaradılıb. Burada maarifləndirici lövhələr də asılıb ki, bu lövhələrdə işğaldan azad olunan torpaqların əraziləri, azadolunma tarixləri kimi məlumatlar qeyd olunub. Əsgərlərin savadlı, fiziki və mənəvi cəhətdən sağlam, vətənpərvər insanlar kimi yetişdirilməsi üçün hər cür şəraitin yaradıldığı diviziyada sərhədçilər işğalçı düşmənin istənilən təxribatına qarşı qətiyyətli cavab vermək gücündədir.





Müsahibimiz dedi ki, hər birimiz muxtar respublika rəhbərinin bizim üçün yaratdığı şəraiti görür və sərhədçilərə göstərilən diqqəti dərindən dərk edirik. Bu qayğının müqabilində biz sərhədçilər də üzərimizə düşən vəzifələri layiqincə yetirmək üçün bütün gücümüzlə çalışırıq. Dövlət sərhədlərinin təhlükəsizliyini, mühafizəsini, qarşıya qoyulan tapşırıqları vaxtında icra etməyə böyük səy göstəririk. Sərhədçilər üçün yaradılan şəraitə görə şəxsi heyət adından Ali Məclisin Sədrinə minnətdarlıq edən mayor Anar Hacıəliyev bundan sonra da sərhədlərimizin etibarlı mühafizəsi istiqamətində qüvvə və bacarıqlarını əsirgəməyəcəklərini söylədi.

Burada olarkən gizir, baş məşqçi ***Əli Muradov***la da söhbət etdik. Baş məşqçi dedi ki, diviziyada müasir tələblərə cavab verən idman kompleksinin yaradılması təkcə sərhədçi əsgərlərin fiziki cəhətdən möhkəm olması üçün deyil, həm də burada fəaliyyət göstərən şəxsi heyətin asudə vaxtının səmərəli təşkili üçün nəzərdə tutulan məqsədyönlü tədbirlərin davamıdır. Diviziyada yeni istifadəyə verilən voleybol, futbol və basketbol yarışlarının keçirilməsi üçün böyük zal, kişilər üçün trenajor, qadınlar üçün fitnes zalı, 2 məşqçi otağı da yaradılıb. Fitnes zalında xüsusi məşq cədvəli ilə diviziyada fəaliyyət göstərən sərhədçi qadınlar və sərhədçilərin xanımları boş zamanlarını səmərəli dəyərləndirirlər. Ən müasir standartlara uyğun avadanlıqlar və alətlərlə təchiz olunan kompleksdə 18 idman aləti və aparat hərbi qulluqçuların idmanla məşğul olmaları üçün əlverişli şərait yaradır. Baş məşqçi Əli Muradov dedi ki, sərhədçilərə göstərilən diqqət və qayğının nəticəsidir ki, onlar Əlahiddə Ümumqoşun Ordu üzrə keçirilən idman yarışlarında birincilik qazanıblar. Diviziyada sərhədçilər və onların ailələrinin, həmçinin əsgərlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün istirahət və uşaq əyləncə yerləri yaradılıb. Sərhədçilərə göstərilən diqqət və qayğıya, onlar üçün yaradılan şəraitə görə gizir Əli Muradov minnətdarlığını bildirdi.

Şahidi olduğumuz mənzərə onu deməyə əsas verir ki, sərhədlərimizin etibarlı mühafizəsini təmin etməklə yanaşı, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi istiqamətində də mühüm tədbirlər həyata keçirən "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası cəmiyyət üçün layiqli vətəndaş formalaşdırılmasında gənc nəslin ulu öndər Heydər Əliyevin dövlətçilik ideyalarına sədaqət ruhunda tərbiyə olunmasında, Vətənə, onun sərhədlərinə məhəbbət hissinin aşılanmasında, gənclərdə sərhədçi peşəsinə marağın artırılmasında böyük rol oynayır. Əsgərlərimizdən ***Murad Ələkbərov***la söhbət zamanı bunun bir daha şahidi olduq: "Əsgəri xidmət keçmək hər bir gəncin şərəf borcudur", – deyən əsgər söhbətinə belə davam edir: "Hərbi xidmətdə bir çox üstün keyfiyyətlərə yiyələnmişəm. İnsan dözümlülük, möhkəmlik, mərdlik kimi əsl kişiyə xas xüsusiyyətlər qazanır burada. Silahlardan istifadə etməyi, döyüş taktikasını öyrənmişəm. Ömürlük davam edəcək dostluqlar qurmuşam. Burada əsgərlərin hər biri uğurla xidmət edir, verilən tapşırıqları vaxtında yerinə yetirir. Məişət şəraitimiz də yüksəkdir. Bir gənc kimi sevincliyəm ki, Vətən qarşısında borcumu layiqincə yerinə yetirib, ailəmin yanına başıuca qayıdacağam. Keçirilən təlimlərə həvəslə yanaşıram. Silahların iş prinsipi, ondan sərrast nişan almağı bacarıqla öyrənirəm. Hərbi bilikləri yaxşı öyrənməyə daim can atıram, komandirlərimin də üzərimizdəki zəhməti danılmazdır. Bacarıqlı əsgər kimi formalaşmağımızda böyük əziyyətləri vardır. Bir gənc kimi fəxr edirəm ki, azərbaycanlıyam, Azərbaycan Ordusunun əsgəriyəm". Əsgər Murad Ələkbərovun timsalında burada ünsiyyətdə olduğum digər əsgərlər də Vətən qarşısındakı borcunun öhdəsindən layiqincə gəlmək məramı, qəlblərində aşıb-daşan Vətən sevgisiylə döyüş tapşırıqlarına məsuliyyətlə yanaşır, nümunəvi xidmət etməyə çalışırlar.

*...Bəli, son illər ərzində "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasının əldə etdiyi nailiyyətlər onu deməyə əsas verir ki, Vətən sərhədləri etibarlı əllərdədir. Millətin öz övladına əmanət etdiyi Azərbaycan sərhədləri hər bir Vətən övladı üçün əzizdir, müqəddəsdir. Mənəvi zənginliklərin təməlində duran ülvi məramın mənbəyi məhz bu dəyərdir. Varlıq aləminin ən dəyərlisi olan Vətənin mühafizəçisi olmaq, Vətən boyda əmanətə keşik çəkmək, sadəcə, borc deyil, həm də mənəvi ucalığa aparan şərəf yolçuluğudur. Milli dəyərlərə bağlı, Vətənə sədaqət andı içmiş Azərbaycan sərhədçisi üçün bütün maddi və mənəvi zənginliklər sərhəddən başlayır. Milli təfəkkürümüzdə müqəddəslik zirvəsinə ucalmış ölkə sərhədləri Vətən övladının alınmaz qalası, şər qarşısında keçilməz sipəridir. Qəlbi yurd sevgisi ilə döyünən kəslər üçün azadlıq ruhunun pərvazlandığı məkan da müstəqilliyimizin, azadlığımızın ilk qədəmgahıdır. Milli qürurumuz olan hər şey bu qədəmgahdan başlanır, sərhəddən, Vətən sərhədindən...*

**✍ Gülcamal TAHİROVA**

## Əmək yarmarkası keçirilib



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təsdiq edilmiş "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"nın icrasına uyğun olaraq muxtar respublikada əmək yarmarkalarının keçirilməsi davam etdirilir. Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən növbəti əmək yarmarkası iyul ayının 14-də Şərur rayonunda keçirilib.

Tədbirdə çıxış edənlər bildiriblər ki, əmək yarmarkaları işaxtaran vətəndaşların məşğulluğunun təmin edilməsi istiqamətində mühüm tədbirlərdən hesab olunur. Əmək yarmarkalarında müəssisələrdə olan vakant yerlər işsiz və işaxtaran vətəndaşlara təklif olunur, müvafiq hallarda iş yerlərinə göndərişlər verilir, peşə və ixtisası olmayan, yaxud peşə bacarığına uyğun iş tapılmasında çətinlik yaranan şəxslər peşə hazırlığına cəlb olunurlar. Qeyd edilib ki, bu tədbirlərdə vətəndaşların ödənişli ictimai işlərə, özünüməşğulluq proqramına cəlb olunması üçün də qeydiyyatı aparılır.

İşaxtaranlarla yanaşı, hərbi xidmətdən yeni tərxis edilmiş gənclərin də təmsil olunduğu yarmarkaya, ümumilikdə, 50 müəssisədən 226 boş iş yeri təqdim edilib. Nəticədə, 37 nəfərin sözügedən vakansiyalar üzrə işə göndərilməsi təmin olunub, 21 nəfərin özünüməşğulluq proqramına cəlb edilməsi üçün qeydiyyatı aparılıb.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

*Naxçıvan şəhərindəki "Saat Meydanı" turistik istirahət mərkəzində Naxçıvan Muxtar Respublikası Gənclər Fondu tərəfindən təşkil olunan "Naxçıvanı qürurla paylaşırıq" adlı foto və videotəqdimat müsabiqəsinin yekun tədbiri olub.*

## "Naxçıvanı qürurla paylaşırıq"
## *adlı foto və videotəqdimat müsabiqəsinin qalibləri mükafatlandırılıb*



Tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev bildirib ki, müsabiqənin keçirilməsində məqsəd muxtar respublikanın mədəniyyətini, tarixi abidələrini, turizm imkanlarını, təbiət mənzərələrini, müasir inkişafını, adət-ənənələrini təbliğ və tərənnüm etməkdən, eləcə də Naxçıvanın tanıdılması və təbliğində fəal və istedadlı gənclərin stimullaşdırılmasından ibarətdir. Qeyd edilib ki, bu gün yaradılan şərait hesabına gənclər bütün sahələrdə olduğu kimi, sosial şəbəkələrdə də Naxçıvanın təbliğatında fəallıq nümayiş etdirirlər. Sürətli internet təminatı bütün naxçıvanlı gənclərin sosial şəbəkələrdən sərbəst istifadəsinə geniş meydan açıb. Bunun nəticəsidir ki, bu gün Azərbaycanda Naxçıvan haqqında ictimai rəyin formalaşması, əhalinin məlumatlandırılmasında bu şəbəkələrdən aktiv istifadə edən naxçıvanlı gənclər müstəsna rol oynayır. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə muxtar respublikada yaradılan şərait bu sahədə gənclərin fəallığını təmin edib, gənc bloqçular üçün geniş imkanlar açılıbdır. "Naxçıvanı qürurla paylaşırıq" adlı foto və videotəqdimat müsabiqəsinin keçirilməsi də yaradılan şəraitin nəticəsidir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının üzvü, "Naxçıvanı qürurla paylaşırıq" layihəsinin rəhbəri Sara Əzimova çıxış edərək bildirib ki, müsabiqə qaliblərinin mükafatlandırılması mərasimi əlamətdar bir günə – 14 iyula təsadüf edir. Müstəqil Azərbaycan Respublikasının qurucusu və memarı olan ulu öndər Heydər Əliyev ölkəmizdə birinci dəfə siyasi hakimiyyətə 1969-cu ildə məhz bu gün gəlib. Bu gün ümummilli liderimizin ideyalarının, Heydər Əliyev quruculuq xəttinin davam etdirilməsinin nəticəsidir ki, Naxçıvan inkişafının ən yüksək mərhələsinə qədəm qoyub. Buna görədir ki, Naxçıvan sosial şəbəkələrdə də qürurla paylaşılır, bu istiqamətdə müxtəlif layihələr həyata keçirilir. Bu layihələrdən biri də 2022-ci ilin fevral ayından start verilən "Naxçıvanı qürurla paylaşırıq" layihəsidir. İndiyə qədər bu layihə çərçivəsində paylaşımlara baxış sayı 8 milyonu ötübdür. Qeyd olunub ki, naxçıvanlı fəal gənclərlə yanaşı, layihəyə tanınmış bloqçular da qoşulub, "Naxçıvanı qürurla paylaşırıq" həştəğında yerləşdirilən foto və videolar Azərbaycan üzrə minlərlə sosial şəbəkə istifadəçisi tərəfindən paylaşılıb. Bu paylaşımların bir fərqi var ki, orijinaldır və statistikanı yüksək göstərmək üçün panel qoşulmayıb. Diqqətə çatdırılıb ki, layihə iştirakçıları muxtar respublika rəhbəri tərəfindən daim diqqət və qayğı ilə əhatə edilib. Onların 19-20 fevral tarixlərdə Ağbulaq İstirahət Mərkəzində düşərgəsi təşkil olunub, Naxçıvanın təbiət yerlərinə səyahətlər edilibdir. Sara Əzimova layihə iştirakçıları adından mənəvi və maddi dəstəyə görə Ali Məclis Sədrinə minnətdarlıq edib.

Sonra müsabiqənin qalibləri mükafatlandırılıblar.

Naxçıvan Muxtar Respublikası Gənclər Fondundan aldığımız məlumata görə, müsabiqəyə muxtar respublikada yaşayan həm peşəkar, həm də həvəskar müəllif olmaqla, 300 foto, 30 video təqdim olunub, hər istiqamət üzrə, ümumilikdə, 9 qalib seçilib. 8 nəfər sosial şəbəkə istifadəçisi isə həvəsləndirici yerə layiq görülüb.

Qeyd edək ki, müsabiqəyə təqdim olunan işlər sosial şəbəkə səhifələrində *#naxçıvanıqürurlapaylaşırıq* həştəği hərkəsə açıq şəkildə paylaşılıb. Müsabiqədə foto istiqaməti üzrə birinci yerin qalibi "Cahan Tabak Beynəlxalq" Məhdud Məsuliyyətli Cəmiyyətinin əməkdaşı Namaz Namazov, ikinci yerin qalibi Kəngərli rayonunun Xok kəndindən olan həvəskar fotoqraf Pünhan Məmmədli, üçüncü yerin qalibləri "Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyətinin əməkdaşı Pnar Yusifli, Naxçıvan Dövlət Universitetinin Biologiya ixtisası üzrə I kurs tələbəsi Fatimə İsmayılova, videotəqdimat üzrə birinci yerin qalibi Şahbuz rayon Qızıl Qışlaq kənd icra nümayəndəliyinin əməkdaşı Zülfüqar Qurbanlı, ikinci yerin qalibləri Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin Televiziya və Radio Verilişləri Redaksiyasının əməkdaşı Sara Əsədova və "Nəqşicahan" Holdinq Şirkətlər Qrupunun əməkdaşı Allahverdi Şahmərdanov, üçüncü yerin qalibləri isə Ordubad Rayon Gənclər və İdman İdarəsinin rəisi Hacı Sadiqov və Şərur rayonunun Mahmudkəndindən olan həvəskar rejissor Maksun Qasımov olublar.

Qaliblərə Naxçıvan Muxtar Respublikası Gənclər Fondu tərəfindən diplom, pul mükafatları və qiymətli hədiyyələr təqdim olunub. Qaliblərdən gənc bloqçu Zülfüqar Qurbanlı göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıq edib.

**Gülcamal TAHİROVA**

## Naxçıvan Dövlət Universitetinin müəllimi STEAM müəllimlərinin III beynəlxalq konfransında iştirak edib



Naxçıvan Dövlət Universiteti Təbiətşünaslıq və kənd təsərrüfatı fakültəsinin dosenti Zərövşən Babayeva Türkiyənin İstanbul şəhərində İbn Haldun Universitetində STEAM müəllimlərinin III beynəlxalq konfransında iştirak edib. "XXI əsr STEAM müəllimlərindən gözlənilənlər" mövzusu ilə çıxış edən Zərövşən Babayeva universitetin Biologiya müəllimliyi ixtisası tələbələrinin hazırladıqları ağıllı əyani vəsaitlər və digər mövzularda ərsəyə gətirdikləri işlər haqqında məlumat verib. Təqdim edilən vəsaitlər konfrans iştirakçılarının xüsusi marağına səbəb olub.

Konfransda dünyanın müxtəlif ölkələrindən fərqli mövzularla çıxış edən fənn və mühəndislik sahəsindən olan mütəxəssislər maraqlı təqdimatlar, praktik çalışmalar və vorkşoplarla yaddaqalan işlər nümayiş etdiriblər.

Təqdimatlar içərisində təbiət elmlərinə həsr olunmuş işlər daha çox maraq doğurub. Həmçinin konfransda Bakı, Gəncə, Sumqayıt, Masallı və digər bölgələrdən orta məktəb müəllimləri, şagirdlər, müxtəlif təlimçilər də iştirak ediblər.

Məlumat üçün bildirək ki, Naxçıvan Dövlət Universitetinin dosenti Zərövşən Babayevanın yenicə çapdan çıxmış "XXI əsr bacarıqları – STEAM təhsil metodu" adlı dərs vəsaiti də konfransda müzakirəyə qoyularaq yüksək qiymətləndirilib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Miqrasiya proseslərinə nəzarət gücləndirilir



Naxçıvan Muxtar Respublikasında miqrasiya proseslərinə dövlət nəzarətinin gücləndirilməsi, qanunsuz miqrasiyanın qarşısının alınması məqsədilə Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçirilən tədbirlər iyun ayında da davam etdirilib. Xidmət tərəfindən muxtar respublika ərazisində qanunsuz yaşayan və qeydiyyatsız olan əcnəbilərin qeydiyyata alınması qaydalarını pozan, habelə qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 89 şəxs aşkarlanaraq Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq barəsində müvafiq tədbirlər görülüb.

Ötən ay xidmətə, ümumilikdə, 628 müraciət daxil olub ki, onlardan 157-si əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti və daimi yaşamaq üçün icazənin verilməsi, əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsinin verilməsi, müvəqqətiolma müddətinin uzadılması, eləcə də vətəndaşlıq məsələləri ilə bağlı olub. Müraciətlərin hər biri ayrı-ayrılıqda qanunvericiliyin tələblərinə əsasən araşdırılıb, müvafiq qərarlar qəbul edilib.

Hesabat dövründə olduğu yer üzrə qeydiyyatla bağlı 471 müraciət qeydə alınaraq icrası təmin olunub, həmin müraciətlərdən 59-u elektron xidmətlər portalı və elektron poçt üzərindən qəbul edilib. Dövlət Miqrasiya Xidməti tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq maarifləndirmə tədbirləri aparılıb.

***Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin mətbuat xidməti***

*Gəncliyimiz, gələcəyimiz*

## Aydın sabahlara uğurlu addımlarla

*Artıq bir təhsil ilini də başa vurmuşuq. Hər il olduğu kimi, bu il də bir çox gəncimiz gərgin zəhməti, çalışqanlığı, elm, təhsil yolundakı yorulmaz addımları ilə yüksək nəticə toplayaraq tələbə adı qazanmağın bir addımlığında dayanıb. İllərin zəhmətinin, yuxusuz gecələrin şirin nəticələrini topladıqları yüksək balda görən məzunlarımız həm müəllim və valideynlərinin, həm də Vətənimizin fəxri, başucalığıdırlar. Həmin gənclərimizdən biri də Babək rayon Zeynəddin kənd tam orta məktəbinin məzunu, IV ixtisas qrupu üzrə muxtar respublika birincisi olan **Fuad Məmiyev**dir. Hələ uşaqlıq illərindən dəqiq fənlərə maraqgöstərən qəhrəmanımızın fikirlərini, qazandığı uğurun əsas səbəblərini, həmyaşıdlarına bu haqda tövsiyələrini aziz oxucularımızla da tanış etmək qərarına gəldik.*



"Yeganə məqsədim gələcəkdə savadlı həkim olmaq, bu yolla az da olsa, Vətən borcumu yerinə yetirməkdir", – deyən müsahibimiz özü haqqında məlumat verərək söhbətə başladı:

– 2005-ci ildə Zeynəddin kəndində anadan olmuşam. 2011-ci ildə Babək rayonunun Zeynəddin kənd tam orta məktəbinə daxil olmuş, 2022-ci ildə həmin məktəbi "Qızıl" nişanla başa vurub məzun adını qazanmışam. Məktəb illərində dəqiq fənlərə böyük marağım var idi. İxtisaslar içərisində diqqətimi çəkən tibb sahəsinə insanlara, Vətənimə xidmət göstərməyin bir yolu, vasitəsi kimi baxmışam, bu ixtisasa qəbul olmağı qarşıma məqsəd qoymuşdum, necə deyərlər, gecəmi gündüzümə qatmışdım. Hədəfimə çatmaq üçün çoxlu kitablar oxuyur, vaxt bölgüsünü düzgün müəyyənləşdirməyə, asudə vaxtdan səmərəli istifadə etməyə diqqətlə yanaşır, sosial şəbəkədə yalnız maraqlı, faydalı videomateriallar izləyirdim. Aşağı siniflərdən artıq bir çox olimpiadalara qatılır, intellektual yarışlarda iştirak edirdim. Həmin yarışlar içərisində fizika fənni üzrə rayon və muxtar respublika birinciliklərini qazanmışam. Bu uğurlarımı qəbul imtahanında da doğrultmağa nail oldum. Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilən qəbul imtahanının birinci mərhələsində maksimum 300 baldan 281 bal, ikinci mərhələsində isə maksimum 400 baldan 395 bal toplayaraq, ümumilikdə, 676 bal nəticə ilə IV ixtisas qrupu üzrə muxtar respublika birinciliyini qazanmışam. Özüm haqqında onu da qeyd edim ki, tibb ilə yanaşı, musiqiyə də uşaqlıqdan maraq göstərmişəm. Xatırlayıram ki, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının məktəbimizə gələn nümayəndə heyəti tərəfindən seçilərək bir çox yarışmalara da cəlb edilmişdim. Hətta Tofiq Quliyevin əsərlərindən ibarət muxtar respublika müsabiqəsində ikinci yerin qalibi olmuşdum.

Bu da bir təcrübədir ki, adətən, uğur qazanmaq, bir sahədə özlərini təsdiq etmək üçün o yolları qət etmiş insanlarla söhbət daha maraqlı olur, onların fikirlərini öyrənmək arzusu yaranır. Bu, bir çox sahələrdə belədir, eynilə təhsil sahəsi kimi... Mövzumuzun gənc qəhrəmanı Fuad da çoxsaylı oxucu kontingentinə malik həmyaşıdlarına, bu yolun gələcək yolçularına tövsiyələrini verməyi unutmadı:

– Hər bir insan, ələlxüsus da, gənclər öz potensiallarına çox yaxşı bələd olurlar, güclərinin hansı nöqtəyə çatacağını yaxşı bilirlər. Savad, intellekt, elmə olan maraq da insana hələ körpəlikdən aşılanır, onun şüuruna həkk olunur. Hərdən valideynlər deyir ki, uşağın düşdüyü mühitdir onu formalaşdıran. Düzdür, mühitin bizim həyatımızda rolu əvəzolunmazdır, amma bu bütün məsuliyyəti cəmiyyətin üzərinə yükləmək anlamına gəlmir. Daxilən sakittəbiətli, hörmətli ailədə böyümüş uşaq gələcəkdə bunları mütləq həyatında əks etdirir. Hesab edirəm ki, bu mövzuda müasir gəncliyin bəxti gətirib. Bu gün gənclərimizin istənilən sahədə özünü doğrultması üçün hər bir şərait var. Gözəl məktəb binaları, işıqlı sinif otaqları, zəngin kitabxanalar və bunun kimi çoxsaylı təhsil-mədəniyyət ocaqları qurulub-yaradılaraq bizim ixtiyarımıza verilib. Bir şagirdin Vətən qarşısındakı yeganə borcu ona layiq vətəndaş olmaqdır. Biz bu torpaqda böyümüşük, bu yurdun havasını udub, çörəyindən yemişik, ona borcumuz mütləq ödəməlidir. Bu məqamda mərhum şairimiz Musa Yaqubun orta məktəbdə əzbərlədiyim, həmişə sevə-sevə qiraət etdiyim misraları düşdü yadıma:

*Bəlkə də, borcundan çıxmadım, Vətən*
*Ömür bahar deyil, bir də qayıtsın,*
*Ölsəm də qoynunda qoy ölüm ki, mən,*
*Çürüyüm, bir ovuc torpağın artsın.*

Hər bir gəncin formalaşmasında, ailənin rolu böyük olduğu kimi, cəmiyyətdə də müəllimin rolu əvəzolunmazdır, inkaredilməzdir. Bilikli şagird qürur, fəxr deməkdir, gələcəyə nurlu baxış deməkdir. Hər bir müəllim illərdir, göstərdiyi pedaqoji fəaliyyətinin, necə deyərlər, daxili hesabatını verərkən həmin uğurlu şagirdləri ilə öyünür, onları xatırladıqca qəlbindəki fəxr hissi daha da pərvazlanır. Elə Zeynəddin kənd tam orta məktəbinin direktoru, uzun illərdir, məktəbdə riyaziyyat fənnini tədris edən ***Raifə Əsgərova*** kimi. Raifə müəllim də Fuadla bağlı fikirlərini bizimlə bölüşdü. Diyarımızda yaradılan yüksək təlim-tədris şəraitindən söhbət açan müsahibimiz dedi: – Muxtar respublikamızın uğurlu inkişaf siyasəti gənclərimizin təhsil səviyyəsinin yüksəldilməsinə, dünyagörüşlərinin formalaşmasına hərtərəfli şərait yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında" 2012-ci il 31 yanvar tarixli Fərmanına əsasən Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"nın təsis edilməsi, gənclərə göstərilən diqqət və qayğının ən bariz nümunəsidir. Müxtəlif sahələrdə fərqlənən gənclərin istedadlarının qiymətləndirilməsi, onların fəxri diplomlarla, nominasiyalarla, hədiyyələrlə mükafatlandırılması muxtar diyarın gənclərinin öz üzərlərində daha böyük səy və məsuliyyətlə çalışmalarına təkan verir. Belə gənclərimizdən biri də bu il məktəbimizi ən yüksək nəticə ilə başa vuran Fuad Məmiyevdir. Fuad öz davranışı, yüksək intellekti ilə həmişə yaşıdlarından seçilib. Onun bu cür nailiyyət qazanacağına, yüksək nəticə toplayacağına bütün müəllim kollektivi, valideynləri tam əminliklə inanırdı. Bilirdik ki, Fuadı gələcəkdə həkim simasında görəcək, bununla qürur duyacağıq. Belə gənclərimizlə duyduğumuz qürur hissini ifadə etməkdə, həqiqətən, sözlər aciz qalır. Arzu edirəm ki, bütün gənclərimiz gələcəkdə əsl vətəndaş kimi formalaşsınlar. Bütün məzun adını qazanmış şagirdlərimizə tələbəlik həyatı arzu edirəm.

Bu gün gənc qəhrəmanımız Fuadın timsalında neçə-neçə savadlı gəncimiz məktəb həyatını bitirməklə həyat məktəbinin bir addımlığında, astanasında dayanıblar. Artıq təhsil illərindən qayğısız günlər də geridə qalıb. Tutduqları bu uğur yolunun onları nurlu gələcəyə aparacağına valideynləri, müəllimləri qədər biz də inanırıq. Arzu edirik ki, Fuadın timsalında bütün zəkalı gənclərimiz gələcəkdə özlərinə layiqli yer tutsunlar, Vətənimizə layiqli şəxsiyyət olub, ölkəmizi, xalqımızı dünyada qürurla təmsil etsinlər.

**Bülbül QULİYEVA**
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi***

## Cənnətdən süzülür şəhid bulağı...

*Tarixən su çəkdirmək, bulaq tikmək xeyir iş, savab əməl sayılıb. Çünki neçə-neçə nəsillər, yaxın-uzaq ellərdən gələn qonaqlar həmin bulaqların gözündən su içib bu işin təşəbbüskarlarını hörmətlə yad ediblər. İndi Culfanın Əlincəçay boyunca uzanan kəndlərində inşa olunan bulaq-abidələr də xeyirxah əməl kimi qiymətləndirilir. Bu bulaqlar nəinki culfalılar, hər bir azərbaycanlı üçün əzizdir, doğmadır. Çünki onlar tarixi Zəfərin memarları olan, qanları və canları ilə tarix yazmış şəhidlərin xatirəsinə salınıb.*



Bu kəndlərin yetirmələrinin bir çoxu I və II Qarabağ müharibəsində dastan yazanlardan, şərəfli ölümləri ilə əbədi yaşamaq hüququ qazananlardan olublar. İndi isə həmkəndliləri onların xatirəsinə bulaq-abidələr inşa ediblər. Böyük Qələbəmizin simvolu olan xarıbülbülün əksi bəzəyir bu bulaqları, hər su damlasında müqəddəs şəhidlərimizin adı, xatirəsi, şərəfli döyüş yolu yaşayır:

*Nə əzmi azaldı, qüruru söndü,*
*Zamanı qocaltdı, tarixi yendi,*
*Zəfər şərqisiylə evinə döndü,*
*Hər şəhid tarixin qızıl varağı, –*
*Cənnətdən süzülür Şəhid bulağı.*

Hər şəhid Vətənin qürurudur. Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olan oğullarımızın adını əbədiləşdirmək, xatirəsini əziz tutmaq üçün bütün bölgələrimizdə onların adına abidələr qoyulur, parklar salınır, şəhid bulaqları yaradılır. İnsanlar həmin bulaqların suyunu içməklə şəhidlərimizin ruhunu yad edir:

*Ey Şəhid! Gözlərin bulağı oldun,*
*Ruhundan qəlblərin çeşməsi daşır.*
*Hər qəlbdə, könüldə doğma iz qoydun,*
*Hər evdə-ocaqda adın dolaşır.*

Başdan-başa vətənpərvərlik ruhu, doğma yurda bağlılıq məramı ilə dolub-daşan bu təşəbbüslə xalqımız bir daha göstərir ki, şəhidlər baş tacı kimi əbədi olaraq qəlbimizdə yaşayırlar. Ərəzin kəndindən başlamış üzü Boyəhməd, Ləkətağa qədər uzanan bütün kəndlərimizdə inşa olunan bulaqlar həm də Vətən övladlarının xatirəsinə dərin ehtiramın ifadəsidir. İndi bu bulaqların suyundan içən hər bir kəs torpaqlarımızın azadlığı yolunda canını fəda etmiş qəhrəmanlarımızın ruhlarını sayğıyla yad edir, onu mənəviyyat dünyamızda qaynayan çeşməyə bənzədirlər.

Tarix durduqca yaşayacaq bu savab əməl, bu bulaqlar digərlərindən fərqlənəcək, seçiləcək. Çünki bulaqlarda Amin, Şamil, Vəli, Hafis, Miryasin, Ramazan, Kənan kimi qəhrəman oğulların ruhu yaşayır.

Kəndlərimizdə olan bütün bulaqları bir-bir gəzir, suyundan içirik. Bu bulaqların ətrafında həm də yaşıllıqlar salınmış, buradan ötənlərin istirahəti üçün də şərait yaradılmışdır. Camaldın kəndindəki bulağın yanında dayanırıq. Məktəbyaşlı uşaqlar bulağın suyundan elə şirin-şirin içirdilər, biz də o sudan dadmaq istədik. Bulağa yaxınlaşanda uşaqlardan biri dedi:

– Əmi, siz də qəhrəman olmaq istəyirsiniz? Qəhrəman olmaq üçün bulaqdan su içirsiniz? Uşağın sevincdən gözləri parıldayırdı. Qiymətli bir şey tapıbmış kimi üzündə yaranan sevinc ifadəsini hiss etməmək mümkün deyildi. Nə deyəcəyimizi, nə cavab verəcəyimizi fikirləşdik ki, balaca əlavə etdi: – Hələ dərs zamanı müəllimimiz deyirdi ki, kim bu bulaqdan su içərsə, o da qəhrəman olar. Biz də hər gün bu bulaqdan su içirik. Təkcə biz yox, yoldan keçənlər də maşınlarını saxlayıb su içirlər. Yəqin, onlar da qəhrəman olmaq istəyirlər!

Qeyd edək ki, Camaldın kəndi Vətən müharibəsi zamanı iki şəhid verib. Bütün şəhidlərimiz kimi, onlar da doğulub boya-başa çatdığı kəndin qürur mənbəyidir. İçimizdən qəribə duyğular keçir. Balaca məktəblinin bu sözləri qarşısında kirpiklərimdən dənələnib süzülən yaş yanağımı isladaraq üzüaşağı axır. Araya lal bir sükut çökür. Nə meh var, nə də bir yarpaq tərpənir. Sükutu pozuruq… Günəşin zəif şüaları ilə şəffaflaşaraq axan bulaqdan doyunca su içirik. Bulaqların buz kimi sərin suyu, qəlbimizə rahatlıq gətirir. Qanı-canı ilə yurdumuza, Vətənimizə, sinəsi yaralı cənnət Qarabağımıza əbədi sərinlik, xoşbəxtlik gətirən oğullarımızın şərəfinə tikilmiş bulaqların suyundan içdikcə isti havanı, bütün qayğıları unuduruq, canımıza rahatlıq gəlir.



Düşünürəm ki, bu igidlərin həyatlarına yazılan tale nə qədər rəhmətlə, gözəl yazılıb. Sağ ikən Vətəni qoruyan bu igidlər, əməlləri ilə yurda azadlıq gətirən oğullarımız indi də qəlbimizi, ruhumuzu sakitləşdirib, sərinləşdirirlər.

Nə qədər ki Azərbaycan var, nə qədər ki yüksələn üçrəngli Azərbaycan bayrağı var, bir o qədər də şəhidlərimiz, onların qəhrəmanlıq dastanları yaşayacaq, onlar haqqında illər uzunu danışılacaqdır.

*Vətən, torpaq uğrunda canından keçənlər, özlərini fəda edənlər ölmürlər. Aylar, illər, fəsillər keçdikcə, onların göstərdiyi igidliklər dillərdə gəzir, nəsildən-nəslə ötürülür. Bir sözlə, torpaqlarımızın azadlığı yolunda çalışan, vuruşan heç kəs unudulmur, xalqımızın tərəqqisi, istiqlalı, nurlu gələcəyi naminə edilən heç nə yaddan çıxmır. Çünki hər bir şəhid Vətənin mənəvi ucalığıdır.*

**Alim AĞAYEV**
***"Arazın səsi" qəzetinin redaktoru***

## Manat yeganə ödəniş vasitəsidir...

Azərbaycan Respublikası Konstitusiyasının 19-cu maddəsində – ölkə ərazisində manatdan başqa pul vahidlərinin ödəniş vasitəsi kimi işlədilməsi qadağan edilir. Konstitusiyanın bu norması imperativ xarakter daşıdığı üçün bu əməlin konkret olaraq şəraitindən, yerindən, valyutanın növündən, və sair səbəblərdən asılı olmadan törədilməsini qəti şəkildə qadağan edir.



Bütün dünya ölkələri öz dövlətlərində milli valyutadan başqa digər valyuta növlərinin ödəniş vasitəsi kimi qəbul edilməsini ya məhdudlaşdırır, ya da qadağan edir. Bunun səbəbləri müxtəlif ola bilər. İstər iqtisadi, istərsə də hüquqi faktorlar qadağanedici bir normanın zəruriliyini şərtləndirir. Təkcə XXI əsrdə yox, hətta qədim zamanlarda belə mövcud olmuş dövlətlər digər dövlətlərin sikkələrindən (metal pullar) istifadənin qarşısını almağa çalışırdılar. İqtisadi və hüquqi faktorlara söykənən bu tarixi ənənə bu gün müasir hüquq sistemlərində norma şəklində özünə yer tutmaqdadır. Bəli, dünyada milli valyuta ilə yanaşı, başqa valyuta növlərindən istifadə edən dövlətlərə də rast gəlinir. Bu hal, əsasən, milli valyutanın dəyəri aşağı olan və ya konfederativ dövlətlərdə müşahidə olunur.

Konstitusiyamızda təsbit edilən bu normanın tələbinin pozulmasının hüquqi nəticələrinin yaranması məsələsi Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsində öz əksini tapır. Məcəllənin 430-cu maddəsinə əsasən digər valyuta növlərinin ödəniş vasitəsi kimi qəbul edilməsi halında inzibati xətanın bilavasitə obyekti olmuş valyuta məbləğinin qırx faizindən səksən faizinədək miqdarda cərimə edilməsi nəzərdə tutulmuşdur. Yəni bir vətəndaş kimliyindən və səbəbindən asılı olmayaraq, kimdənsə xarici valyutanı ödəniş kimi qəbul etsə, qəbul edilən pulun nominal dəyərindən ən az qırx, ən çox səksən faizi miqdarında cərimə şəklində alınmasını nəzərdə tutur. Alınan məbləğ yüz dollar olarsa, işin hallarından, əməli törədənin şəxsiyyətindən və sair səbəblərdən asılı olaraq cərimə qırx dollar ilə səksən dollar arası təşkil edəcəkdir. Aidiyyəti qurumların cəriməsindən yayınaraq bu əməli edə bilərsiniz, lakin qəbul etdiyiniz xarici valyutadakı əskinasların orijinallığına kim zəmanət verə bilər? Əlbəttə ki, heç kəs...

Müasir dünyada texnoloji vasitələrdən istifadə olunmaqla valyutaların imitasiyasını yüksək peşəkarlıqla orijinalından fərqləndirilməsi mümkün olmayan bir şəkildə hazırlamaq mümkündür. Xüsusilə də beynəlxalq valyuta rolunu oynayan dolların "peşəkar mütəxəssislər" tərəfindən orijinalından çətinliklə ayırd edilə bilən saxta versiyaları sizi asanlıqla aldada bilər. Bu halda pozulmuş hüquqlarınızı müdafiə etməkdə aciz qala bilərsiz...

Xüsusilə diqqət etməli olduğumuz məqam isə qəbul edilən xarici valyutanın saxta olması halında bu əskinasların pul dövriyyəsinə qoşulduğu təqdirdə aşkarlanmasının çətin olmasıdır. Digər tərəfdən, siz saxta əskinası qəbul edərək dövriyyədə digər şəxslərə ötürürsünüz və nəticədə, həmin əskinas nə vaxtsa başqa bir şəxsdə aşkarlandıqda sizin qanunazidd əməliniz nəticəsində maddi ziyan üçüncü şəxslərə (digər şəxslərə) dəymiş olur.

Çalışmalıyıq, bu məsələ ilə lisenziya almış peşəkar qurumlar məşğul olsunlar. Sizə xarici valyutanın mübadiləsi, ödəniş vasitəsi kimi qəbul edilməsi təklif olunduqda yaxşı olar ki, həmin şəxsləri valyuta dəyişmə şöbələrinə və ya banklara yönləndirəsiniz. Bunun sayəsində dövlətin valyuta ehtiyatları üzərindəki nəzarətinə lazımi diqqət göstərmiş olacaqsınız. Beləliklə, xarici valyutanı manatın əvəzinə ödəniş vasitəsi kimi qəbul etməməklə və ya mübadiləsini həyata keçirməməklə iqtisadiyyatımızı və dövlətin pul siyasətini dəstəkləməklə, üçüncü şəxslərin hüquqlarını qorumuş olacağıq.

**Nahid ƏLİYEV**
***Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublika İdarəsinin hüquqşünası***

## Əhalinin fövqəladə hallardan qorunması diqqətdə saxlanılır

*Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi və onun struktur qurumları tərəfindən muxtar respublikada mülki müdafiə, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması, yanğın təhlükəsizliyinin, tikintidə, sənayedə və dağ-mədən işlərində texniki təhlükəsizliyin təmin olunması istiqamətində qarşıya qoyulan vəzifələrin icrası iyun ayında da təmin edilib.*



Xilasedici dalğıcların bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə Uzunoba gölündə ikigünlük gündüz və gecə vaxtlarında taktiki-xüsusi təlim keçirilib, çimərlik mövsümünün başlanmasına hazırlıqla əlaqədar təmir-bərpa və təmizlik işləri aparılıb. Əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə xilasedici dalğıclar tərəfindən gündəlik xidmətin aparılması həyata keçirilir. Hesabat dövründə muxtar respublika ərazisində mövcud olan göl və su anbarlarının mühafizəsi təmin edilib, insanların təhlükəsizliyi üçün xəbərdaredici lövhələr quraşdırılıb.

Nazirliyin hazırlıq planına uyğun olaraq Naxçıvan Neft və Qaz Məhsulları Təminatı Müəssisəsində "Baş vermiş fövqəladə hadisələrin nəticələrinin aradan qaldırılması zamanı idarəetmənin təşkili, Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinin nazirliyin struktur qurumları ilə qarşılıqlı fəaliyyəti" mövzusunda taktiki-xüsusi təlim keçirilib. Əlahiddə Ümumqoşun Orduda yüngül atletika üzrə keçirilən yarışlarda struktur qurumların şəxsi heyətinin iştirakı təmin edilib və hündürlüyə tullanma üzrə qarnizonda birinci yeri tutduğuna görə bir xilasedici fəxri fərmanla təltif edilib.

Ay ərzində 17 təhlükə potensiallı obyektdə texniki təhlükəsizliyə əməl olunması ilə bağlı yoxlamalar aparılıb, 37 müəssisədə 481 işçinin iştirakı ilə maarifləndirmə tədbirləri görülüb. Yanğın təhlükəsizliyinin etibarlı təmin olunması məqsədilə 407 obyekt yoxlanılıb. Reydlər zamanı 5 min 115 yaşayış evinə baxılıb, yanğın cəhətdən təhlükəli olan 77 yaşayış evində elektrik xətti izolyasiya olunub, 72 qaz cihazının şlanqı qısaldılıb. 21 yaşayış evində təbii qaz sızması aradan qaldırılıb, 1 standarta uyğun olmayan qaz sobasının, 6 nasaz şofbentipli suqızdırıcısının, 118 tezqatlanan tüstü borusunun istismarı dayandırılıb. 17 idarə, müəssisə və təşkilatda könüllü və idarədənkənar yanğın komandalarının fəaliyyətinə nəzarət olunub, 20 yanğınsöndürmə avtomobilinin və 1 yanğın qatarının sazlığı, eləcə də komandanın döyüş hazırlığı yoxlanılaraq onların fəaliyyətinə əməli köməklik göstərilib.

Taxıl zəmilərinin yanğınlardan qorunması və qabaqlayıcı tədbirlərin həyata keçirilməsi məqsədilə 123 kombayna və digər kənd təsərrüfatı texnikalarına yanğına qarşı baxış keçirilib. 1171 sahibkar, torpaq mülkiyyətçisi və kombayn sürücüsü ilə maarifləndirici izahat işləri aparılıb, yanğınsöndürmə avtomobilləri heyətləri ilə birlikdə əlverişli yerlərdə yerləşdirilib, növbətçiliyin təşkili və intensiv biçin aparılan sahələrdə patrul xidmətinin aparılması təmin olunub. Meşələrdə, meşəətrafı sahələrdə və xüsusi mühafizə olunan təbiət ərazilərində yanğın təhlükəsizliyi tədbirləri həyata keçirilib, vətəndaşlarla maarifləndirici söhbətlər aparılıb. ***"112"*** qaynar xəttinin fasiləsiz fəaliyyəti təmin olunub.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

***Ölkəmizin digər regionlarından olan bir qrup sağlamlıq imkanları məhdud şəxsin və şəhid ailəsi üzvlərinin bu günlərdə muxtar respublikaya səfəri təşkil olunub.***

## Sosial qayğıya ehtiyacı olan şəxslərin muxtar respublikaya səfəri təşkil olunub



Onlar burada yaradılan şəraitdən bəhrələnməklə, Naxçıvan Diaqnostika Müalicə Mərkəzində, Darıdağ Arsenli Su Müalicəxanasında və Duzdağ Fizioterapiya Mərkəzində müalicə alıb, istirahət ediblər. Əlavə olaraq səfər müddətində qonaqların muxtar respublikanın turizm əhəmiyyətli məkanlarına, o cümlədən Naxçıvan şəhərində yerləşən və Şərq memarlığı incilərindən biri olan Möminə xatın türbəsinə, "Əcəmi" seyrəngahında təşkil olunmuş açıq səma altında muzeyə ekskursiyası baş tutub, daha sonra onlar Naxçıvanqala Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olublar. Ekskursiyanın davamında "Əshabi-Kəhf" Dini-Mədəni Abidə Kompleksinə ziyarət təşkil olunub. Ziyarətin ardından "Sahil Parkı"nda qonaqlar üçün çay süfrəsi təşkil edilib.

Gəzinti muxtar respublikaya səfər edən sağlamlıq imkanları məhdud şəxslərdə xoş təəssürat yaradıb, göstərilən qayğı və yaradılan şəraitə görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, ölkəmizin digər bölgələrindən muxtar respublikaya bu kimi səfərlərin qarşıdakı dövr ərzində də davam etdirilməsi nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

Mirzəyev Elnur Eldar oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 624